DOI: doi.org/10.61226/12.2.2023/20252.10
UOT: 93
Məhərrəm ZÜLFÜQARLI
Azərbaycan Turizm və Menecment Universiteti,
tarix elmləri doktoru, professor
mzulfugarli@mail.ru
https://orcid.org/0000-0003-0345-4318

"BAKI QƏHRƏMAN ŞƏHƏRDİR" 15 İL ƏVVƏL İRƏLİ SÜRÜLMÜŞ TƏŞƏBBÜS

Xülasə: Məqalədə Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 21 yanvar 2005-ci il tarixdən başlayaraq faşizm üzərində qələbənin 60 illiyi ilə əlaqədar "Bakı qəhrəman şəhərdir" adlı böyük layihədən bəhs olunur. Qeyd olunan faktlar sübut edir ki, İkinci Dünya müharibəsində qələbədə həlledici rolu olmuş Bakı şəhərinə qəhrəman şəhər adı verilməsi ədalətin bərpası olunmasıdır.
Açar sözlər: müharibə, qələbə, qəhrəman, şəhər, neft

Maharram ZULFUGARLI
"BAKU - HERO CITY"
INITIATIVE THAT WAS PUT FORWARD 15 YEARS AGO

Abstract: The article discusses the major project "Baku is a Hero City" launched by the Association for the Development of Civil Society in Azerbaijan (ACSDA) on January 21, 2005, in connection with the 60th anniversary of the victory over fascism. The facts mentioned prove that giving the title of hero city to Baku, which played a decisive role in the victory in World War II, is a restoration of justice.
Keywords: war, victory, hero, city, oil

Магаррам ЗЮЛЬФЮГАРЛЫ
«БАКУ – ГОРОД-ГЕРОЙ»
ИНИЦИАТИВА, КОТОРАЯ БЫЛА ВЫДВИНУТА 15 ЛЕТ НАЗАД

Абстракт: В статье рассматривается проект «Баку – город-герой», стартовавший 21 января 2005 года по инициативе Ассоциации содействия развитию гражданского общества в Азербайджане (АСРГОА) в связи с 60-летием победы над фашизмом. Вышеизложенные факты доказывают, что присвоение звания города-героя Баку, сыгравшем решающую роль в победе во Второй мировой войне, является восстановлением справедливости.
Ключевые слова: война, победа, герой, город, нефть

Müharibədə iştirakla bağlı SSRİ-nin Moskva, Leninqrad, Stalinqrad, Minsk, Kiyev, Brest, Sevastopol, Novorossiysk, Odessa, Kerç, Tula, Smolensk, Murmansk şəhərlərinə "Qəhrəman şəhər" adı verilsə də, müharibədəki qələbədə həlledici rola malik Bakıya bu ad verilməmişdir. Fikrimizcə Bakıya "Qəhrəman şəhər" adının sovet dövründə verilməməsinin əsas səbəbini Moskvanın Azərbaycana qarşı ögey siyasətində axtarmaq lazımdır. Sovet rəhbərliyi tərəfindən

müharibədəki qələbədə Bakı neftinin rolunu azaltmaq, hətta unutmaq meyllərinin artması deyilinləri sübut edir. Məsələn, Moskvada nəşr olunmuş, o dövr üçün samballı kitablardan hesab olunan çoxcildli "SSRİ tarixi" kitabında müharibə dövründə neftin çıxarılmasında Ural, Sibir və Volqaboyunun əsas rol oynadığı göstərilib, SSRİ- nin əsas neft mərkəzi və Sovet ordusunu yanacaqla əsas təmin edən Bakı neft rayonu haqqında isə bir kəlmə yazılmayıb.

Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1941-ci ilin ikinci yarısından başlayaraq 1942-ci idə ilboyu bütün qazma qurğuları, Azərbaycanın neft avadanlıqlarının, mühəndis-texniki kadrlarının yarısı "ikinci Bakı" adlandırılan SSRİ-nin şərq rayonlarına köçürlmüşdü. Bunda məqsəd Bakı neft rayonu faşistlər tərəfindən tutulacağı təqdirdə yeni yaradılan bu rayonun cəbhəni yanacaqla təmin edən mərkəzə çevirmək idi. Lakin bu rayonun rolunun sovet tarixi ədəbiyyatında həddindən artıq şişirdilməsi məhz Bakı neft rayonun qələbədəki rolunun unutdurulmasına xidmət etmişdir. Lakin faktlar bu saxtakarlığın ifşa edilməsinə imkan veririr. Əgər şərq rayonlarında yaradılmış yeni neft rayonu SSRİ neft hasilatının 1940-cı ildə 6 %-ni, 1945-ci ildə 14,6%-ni vermişdisə, Bakı neft rayonu 71 %-ni vermişdi. Bakı neft rayonu müharibə dövründə SSRİ-də istehsal olan aviasiya benzinin 80%-ni, kerosin və liqroinin 90%-ni, sürtkü yağlarının 95%-ni, dəniz donaması üçün mazutun hamısını istehsal etmişdir. [1, s.101-102] Yaddan çıxarmaq lazım deyil ki, "ikinci Bakı" neft rayonun yaradılması da məhz Azərbaycan neftçilərinin əməyi sahəsində mümkün olmuşdu.

Sovet siyasi və elmi-tarixi ədəbiyyatında II Dünya müharibəsindəki qələbədə əsas amilin sovet ideologiyası, sosializm sistemi, kommunist partiyasının rəhbəredrici qüvvəsi, xalqlar dostluğu olduğu bildirilir. Müharibəyə aid yazılmış müasir rus elmi ədəbiyyatında isə qələbənin əldə olunmasında sosialist sisteminin üstünlüklərinə deyil, rus xalqının xarakterindəki keyfiyyətlər və vətənpəvərlik hissinin mühüm rol oynadığı bildirilir. Bu cür kitabları yazan müasir rus tarixçiləri əsasən 1945-ci ildə Stalinin qələbədə rus xalqının həlledici rolunu qeyd etdiyi çıxışına istinad edirlər. [4, s.140] Lakin bu cür yanaşma qələbədəki digər xalqların rolunu azaltdığına görə ciddi tənqid olunmalıdır.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) 21 yanvar 2005-ci il tarixdən başlayaraq faşizm üzərində qələbənin 60 illiyi ilə əlaqədar "Bakı qəhrəman şəhərdir" adlı böyük layihə həyata keçirilib. Assosiasiyanın Prezidenti Elxan Süleymanovun adından postsovet və Şərqi Avropa ölkələrinin əksər müharibə veteranları təşkilatlarına, Azərbaycan Respublikasının müxtəlif qurumlarına rəsmi məktublar göndərilib və onların əksəriyyəti bu təşəbbüsü ürəkdən dəstəklədikləri haqqında Assosiasiyaya rəsmi məktublar göndəriblər. Bu təkşilatlardan - Rusiya Federasiyası Qəhrəmanları, Moskva şəhər və Moskva Vilayəti Şöhrət Ordenin Tam Kavelerləri Klubu, Böyük Vətən Müharibəsi Veteranlarının Rusiya Komitəsi, MDB Böyük Vətən Müharibəsi Veteranları İttifaqı, "Qəhrəman şəhər" Moskvanın ictimai birliklərinin Regional Assosiasiyası, MDB iştirakçısı-dövlətlərin hökümət başçıları Şurası yanında beynəlmiləlçi-döyüşçülərin işləri üzrə Komitə, "Qəhrəman şəhər" Kiyevin Sovet İttifaqı Qəhrəmanları Klubu, "Qəhrəman şəhər" Novorossiyskin admnistrasiyası və ictimai birlikləri, "Ordu və Mədəniyyət" vətənpərvər və mədəni ənənlərin qorunub saxlanması və inkişafı üzrə regionlararası İctimai Fond və başqalarını göstərmək olar.

SSRİ-nin keçmiş neft sənayesi Komissarı, Dövlət Plan Komitəsinin Sədri, Rusiyanının Azərbaycanla dostluq Cəmiyyətinin Sədri, Sosialist Əməyi Qəhrəmanı N.K.Baybakov AVCİYA prezidenti E.Süleymanova göndərdiyi məktubda yazırdı: " Mən çox şadam ki, AVCİYA-nın təşkil etdiyi Beynəlxalq Forum, Bakıya, mənim vətənimə gəlmək üçün səbəb oldu. Vətən Müharibəsi dövrünün ağır sınaq illərində Azərbaycan zəhmətkeşlərinin göstərdiyi qəhrəmanlığı qiymətləndirmək çox çətindir. Müharibənin bütün illərində Azərbaycan neftçiləri cəbhəni yanacaqla, sütkü materialları ilə təmin etməkdə heç bir gecikməyə yol verməmişlər. Həmçinin

onlar arxa cəbhə əməkçilərinə də müntəzəm yanacaq və sütkü materialları göndərmişlər... Bütün həyatım boyu mən Azərbaycanın Vətən Müharibəsində qələbəyə verdiyi tövhə ilə fəxr etmişəm." [3, s.208]

Bakıya gəldikdən sonra N.K.Baybakov verdiyi müsahibədə qeyd edirdi ki, "Bakı neftçiləri faşizm üzərində qələbəyə böyük töhfə vermişlər. 10 min Azərbaycan neftçisi "ikinci Bakının" yataqlarının işə salınmasına cəlb edilmişlər. Onlar Başqırdıstan və Permdə işləyirdilər. Qəhrəman əməklərinə görə onlara çox minnətdarıq. Rusiya ictimaiyyəti Bakıya ən yüksək mükafat- "Qəhrəman şəhər" adı verilməsi qərarını tamamilə bəyənir". [3, s.188]

Moskva şəhər və Moskva Vilayəti Şöhrət Ordenin Tam Kavelerləri Klubunun sədri, Sovet İttifaqı Qəhrəmanı N.T.Antoşkin cavab məktubunda yazırdı: "Bizim klubun nüfuzlu nümayəndələrlə "Bakı qəhrəman şəhər" beynəlxalq Forumunda iştirakı bir daha tarixi ədalətin bərpa olunması, Bakıya "Qəhrəman şəhər" rütbəsinin verilməsi arzumuzu təsdiq edir" [3, s.178]

Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Bəstəkarlar İttifaqı, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Azərbaycan Teatr Xadimləri İttifaqı, Azərbaycan Jurnalistlər Birliyi, Azərbaycan Turist Sənayesinin İnkişafı Birliyi, Azərbaycan Republikası Şəhid ailələri və Müharibə Veteranları Təşkilatları, Milli QHT Forumu, BDU, ADPU-nun rektorları, Azərbaycan Prezidenti yanında Dövlət İdarəetmə Akademiyasının rektoru, t.e.d., professor Seyfəddin Qəndilov, Xalq Yazıçısı Anar, AMEA-nın akademikləri M. Kərimov, N. Quliyev, C. Quliyev, A. Nadirov və digər tanınmış şəxslər AVCİYA Prezidenti Elxan Süleymanova rəsmi məktub göndərərək təşəbbüsü təstəklədiklərini bildirmiş və bütün Azərbaycan vətəndaşlarını bu təşəbbüsü müdafiə etməyə çağırmışlar.

Qəhrəman şəhər Moskva - Regional İctimai Assosiasiyasının idarə heyətinin 4 aprel 2005-ci il tarixli müraciətində deyilir: "Bütün dünya faşizm üzərində qələbənin 60 illiyini qeyd edir. Bu böyük bayramda xüsusi iftixar hissi ilə qəhrəman şəhərlər , bu böyük ada layiq olmaq hüquq almış - Moskva, Leninqrad, Stalinqrad, Minsk, Kiyev, Brest, Sevastopol, Novorossik, Odessa, Kerç, Tula, Smolensk, Murmansk iştirak edir. Çox təəssüf ki, bu fəxri siyahıda Bakı şəhərinin adı yoxdur. Böyük qələbədə Azərbaycan xalqının, Azərbaycan Respublikasının və onun paytaxtı Bakının xidməti böyükdür... Biz ümid edir və inanırıq ki,... veteranların varisləri məktəblərdə mərdlik və vətənpərvərlik dərslərində fəxrlər deyəcəklər: "Mənim vətənimi Paytaxtı-Bakı-qəhrəman şəhərdir" [3, s.108-109]

Azərbaycan Milli Araşdırma Assosiasiyası Bakı şəhərinə "Qəhrəman şəhər" fəxri adının verilməsini dəstəkləyərək aşağıdakı təklifi irəli sürmüşdür: "Böyük Vətən Mmüharibəsində göstərdiyi fədakarlığa görə şəhərlər "Qəhrəman şəhər" fəxri adına SSRİ Ali Sovetinin Rəyasət heyətinin fərmanı ilə layiq görülürdü. Hazırda bu adı təsis edən SSRİ adlı bir dövlət olmadığından mürciətin hansı dövlətə ünvanlanacağı da qeyri-müəyyəndir. Fikrimizcə, müraciət Ermənistan istis na olmaqla bütün MDB respublikalarının rəhbərlərinə, ya da özünü SSRİ-nin varisi elan etmiş Rusiya Federasiyasının rəhbərliyinə ünvanlanmalıdır. [3, s.61]

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Akademik Mahmud Kərimov Azərbaycan Respublikasının Prezidentinə 06 aprel 2005-ci ildə rəsmi müraciət etmişdir. Müraciətin sonunda deyilir: "Qələbənin 60 illiyi ərəfəsində Bakıya "Qəhrəman şəhər" adının verilməsi hər bir azərbaycanlının ürəyindən olardı." [3, s.127]

Bakı Dövlət Universitetinin 18 Böyük Vətən müharibəsi veteranı təşəbbüslə əlaqədar Rusiya Federasiyasının prezidenti V.Putinə müraciət edib. Müraciətin sonunda deyilir: "Biz Bakını onsuz da "Qəhrəman şəhər" hesab edirik. Əminik ki, keçmiş SSRİ-nin bütün müharibə veteranları bu fikrimizi dəstəkləyəcəklər. Onu rəsmiləşdirmək və beynəlxalq aləmə məhz bu cür

tanıtdırmaq isə sizin biz veteranlara ən böyük diqqətiniz və qayğınız olacaqdır. Ümidvarıq ki, bizim bu xahişimizi nəzərə alacaqsınız.” [3, s.151-152]

Layihə çərçivəsində müharibə veteranları, Sovet İttifaqı Qəhrəmanları, generallar və digər yüksək rütbəli zabitlərin iştirakı ilə silsilə tədbirlər təşkil olunmuşdur. Assosiasiya hazırlıq işlərini başa çatdırdıqdan sonra Respublika Müharibə, Əmək, Silahlı qüvvələr və Hüquq-Mühafizə Orqanlarının Vetereranlar Şurası, Moskva Qəhrəmanlar klubu, “Sodrujestvo” Ehtiyyatda olan Zabitlər Hərəkatı Komitəsi ilə birlikdə 11 aprel 2005-ci ildə Bakıda Opera və Balet teatrında Beynəlxalq Forum keçirib. Forumda MDB ölkələrinin 9 Böyük Vətən Müharibəsi veteranları təşkilatlarının rəhbərləri, Şərqi Avropada olan nümayəndələr, 25 Sovet İttifaqı Qəhrəmanı, Şöhrət Ordenin Tam Kavelerləri ilə təltif olunmuş 70 nəfər, müharibə dövründə SSRİ-nin neft naziri olmuş N.K.Baybakov, Azərbaycan yaradıcı təşkilatlarının, dövlət qurumlarının, QHT-lər və digər ictimai qurumların nümayəndələri və digər şəxslər iştirak etmişlər. Forumun yekununda tədbir iştirakçıları Azərbaycan Respublikası prezidenti İlham Əliyevə müraciət etmişlər. Müraciətin sonunda qeyd olunurdu ki, ““Bakı qəhrəman şəhərdir!” Beynəlxalq Forumun iştirakçıları, sizdən 60 ildən bəri öz həllini tapmayan məsələnin çözülməsini və öz fərmanınızla paytaxımıza bu fəxri adın verilməsini xahişi edirik” [3, s.8]

Rusiya Federasiyası prezidentinə ünvanlanmış, Azərbaycan xalqının istəyini əks etdirən müraciətlərə qeyri-rəsmi olaraq Rusiya tərəfi, bunun indiki Rusiya rəhbərliyinin səlahiyyətində olmadığını bildirməklə cavab vermişdir. Lakin Rusiya prezidentinə müraciətdən bir il sonra, yəni 2006-cı ildə bu ideyaya uyğun olaraq Rusiyada “Döyüş şərəfi” şəhəri‖ fəxri adı təsis edildi və 45 şəhər bu ada layiq görüldü. Həmçinin müraciətdən 15 il sonra bu ideyaya uyğun olaraq qələbənin 75 illiyi ilə əlaqədar yenə də Rusiyada 01 mart 2020-ci ildə “Əmək rəşadəti şəhəri” fəxri adı təsis edildi və 20 şəhər təltif olundu. Bundan başqa Moskvada yerləşən Dövlətlərarası Qəhrəman Şəhərlər İttifaqı Rəyasət heyəti 2015-ci ilin 7 aprelində “Əmək rəşadəti və şərəfi şəhəri” beynəlxalq fəxri adın təsis edilməsi ilə əlaqədar qərar qəbul edib.

Fikrimizcə Bakıya “Qəhrəman şəhər” adı verilməsi ilə bağlı irəli sürülmüş ideya ilə bağlı keçirilmiş tədbirlər və müraciətlərdən az sonra Rusiya Federasiyasında bu qərarların və təltiflərin həyata keçirilməsini təsadüf hesab etmək olmaz. Azərbaycan tərəfinin irəli sürdüyü ideyadan Rusiyanın bəhrələnməsində də qeyri-adi heç nə yoxdur. Buradan məntiqi belə bir nəticə çıxır ki, SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış respublikalardan biri olan Rusiya Federasiyası bu cür qərarlar qəbul edirsə, digər respublikaların da, xüsusilə Azərbaycan Respublikasının da buna haqqı çatır. Bakı şəhərinin qələbədki rolu isə digər şəhərlərlə müqayisə olunmaz dərəcədə yüksəkdir. Bütün bu təhlillər ideyanın həyata keçirilməsinin mümkünlüyündən xəbər verir. Bakıya qəhrəman şəhər adı verilməsi ideyası hələlik reallaşmasa da bu məsələ aktual olaraq qalır. Fikrimizcə tədqiqatçılar gələcəkdə II Dünya müharibəsi dövründə Azərbaycan xalqının ön və arxa cəbhədəki fəaliyyəti sahəsində araşdırmalarını davam etdirməli, yeni əsərlərlə tarixşünaslığı zənginləşdirməlidirlər. Böyük Vətən Müharibəsində qələbənin 80 illiyi qeyd etdildiyi hazırki dövrdə bu məsələ yenidən gündəmə gətirilməli, Bakı şəhəri layiq olduğu qəhrəman şəhər adına layiq görülməlidir.

Ədəbiyyat

1. Azərbaycanın İkinci Dünya müharibəsi dövründə və Qafqazda xolokostun öyrənilməsindəki rolu mövzusunda Beynəlxalq simpozium (17-19 oktyabr 2012-ci il). Bakı, Elm, 2013,156 s.
2. Zülfüqarlı M.P. İkinci Respublikanın tarixi. Bakı 2020,310s, s.117-123
3. «Баку-город герой» Международный форум 11 апреля 2005 года. В документах и публикациях. (на азерб. и рус. языке). “Bakı qəhrəman şəhərdir”. Bakı, 2005, 248 s.
4. Исмаилов Э.Р. Очерки истории России Советского периода. Баку-2008, с. 250

Məqalənin redaksiyaya daxilolma tarixi: 21.04.2025
Məqalənin çapa qəbul olunma tarixi: 05.05. 2025